**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- **20-22 may 2026** – Ümumdünya Səhiyyə Assambleyasının 79-cu sessiyası (WHA79) çərçivəsində Cenevrə şəhərində keçirilmiş "WHA 76.19 qətnaməsinin icrası: genişmiqyaslı qida zənginləşdirilməsi üzrə qlobal tərəqqinin ilk icmalı" adlı tədbirdə Agentliyin nümayəndəsi də cıxış etmişdir.
- **4-7 noyabr 2025** – ÜST-nin Avropa Regional Bürosu və ÜST-nin Cənubi Qafqaz üzrə Səhiyyə Fövqəladə Hallar Mərkəzinin dəstəyi ilə keçirilən tənəffüs yollarının patogenləri pandemiyasına hazırlıq üzrə masa üstü simulyasiya təlimində Agentliyin nümayəndələri iştirak etmişdirlər.
- **6 may 2025** – AQTA, ÜST, FAO və NUDİA tərəfindən həyata keçirilən "Sözdən əmələ keç, sağlam qidalanmanı seç" maarifləndirmə layihəsi çərçivəsində TƏBİB tərəfdaşlığı ilə "Möcüzə Qida – Ana Südü" mövzusunda tədbir keçirilib; ana südünün sağlamlıq üçün rolu və sağlam qidalanmanın qeyri-infeksion xəstəliklərin qarşısının alınmasındakı əhəmiyyəti vurğulanıb.
- **10 aprel 2025** – AQTA-da ÜST nümayəndələri ilə görüş; zoonoz xəstəliklərə epidemioloji nəzarət, qida təhlükəsizliyində "Erkən Xəbərdarlıq və Cavab (EWAR) Sistemi"nin nəticələri, PPR-dən (xırdabuynuzlu heyvanların taunu) azad statusu və dabaq (FMD) xəstəliyinə nəzarət hədəfləri müzakirə olunub.
- **17 dekabr 2024** – ÜST-in təşəbbüsü ilə hər il keçirilən "Ümumdünya Antimikrob Preparatlardan səmərəli istifadəyə dair Maarifləndirmə Həftəsi" çərçivəsində təşkil olunmuş dəyirmi masada Agentliyin nümayəndələri də cıxış etmişdirlər.
- **16-18 iyul 2024** – Beynəlxalq Tibbi-Sanitariya Qaydaları çərçivəsində ölkənin fövqəladə hallara hazırlığını gücləndirmək və aşkar edilmiş boşluqları aradan qaldırmaq məqsədilə ÜST tərəfindən dəstəklənən Sağlamlığın Təhlükəsizliyi üzrə beşillik Milli Fəaliyyət Planının (NAPHS) hazırlanması üçün seminar keçirilmişdir.
- **14 mart 2024** – AQTA sədri Qoşqar Təhməzli ÜST və FAO nümayəndələri ilə görüşüb; Milli Kodeks Sistemi layihəsi, COP29 hazırlıqları, "Vahid Sağlamlıq" konsepsiyası və sağlam qidalanma üzrə birgə əməkdaşlıq imkanları nəzərdən keçirilib.
- **25 iyun 2023** –ÜST Azərbaycandakı Nümayəndəliyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Səhiyyə Nazirliyi və TƏBİB ilə birlikdə həyata keçirilən Azərbaycanda pandemiyaya cavab (APR) layihəsi çərçivəsində İctimai Səhiyyə üzrə mütəxəssis Mestan Emeklə AQTA nümayəndələri arasında görüş keçirilmiş, layihənin istiqamətlərindən biri olan ictimai səhiyyə xidmətlərinin gücləndirilməsi mövzusu çərçivəsində qida zəhərlənmələri məsələləri üzrə müzakirələr aparılmışdır.
- **23-25 may 2023** – ÜST-in dəstəyi ilə "Daha yaxşı sağlamlıq üçün daha yaxşı laboratoriyalar" təşəbbüsü çərçivəsində Milli laboratoriya strategiyasının hazırlanması məqsədilə seminar keçirilmişdir.
- **27 sentyabr 2023** – AQTA sədri Qoşqar Təhməzli ÜST-in Azərbaycandakı nümayəndəsi Hande Harmancı ilə görüşüb; tərəflər əməkdaşlığın perspektivlərini

müzakirə ediblər. 14–15 sentyabr 2023 tarixlərində Bakıda AQTA-nın 5 illiyi və Kodeks Alimentariusun 60 illiyinə həsr olunmuş “Qida standartları həyatları xilas edir” tədbirinin uğurla keçirildiyi qeyd edilib.

- **9-10 fevral 2023** – ÜST tərəfindən Beynəlxalq Tibbi-Sanitariya Qaydaları çərçivəsində Birgə Xarici Qiymətləndirməyə dair seminar keçirilmişdir.
- **11 oktyabr 2018** – AQTA sədri Qoşqar Təhməzli ÜST-in Azərbaycandakı yeni nümayəndəsi Hande Harmancı ilə ilk görüşünü keçirib; ölkədə təhlükəsiz və sağlam qida təminatı sahəsində əməkdaşlığın genişləndirilməsi niyyəti ifadə olunub.